*Layihə*

# "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu

**1. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin 78.2-ci maddəsinə aşağıdakı məzmunda abzas əlavə edilsin:**

*"Məhkəmə tərəfindən tələb olunan sübutlar məxfi məlumatlara aiddirsə, bu halda məhkəmə məlumatların məxfiliyinin qorunmasını təmin etmək məqsədilə həmin sübutların təqdim edilməsi üçün zəruri prosedurların həyata keçirilməsi barədə müvafiq qərar qəbul etmək səlahiyyətinə malikdir".*

**2. "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakı əlavə və dəyişikliklər edilsin:**

**2.1.** 7.4.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

*"7.4.2. kommersiya məqsədi ilə qorunan topologiyanın, qorunan topologiyanın daxil edildiyi inteqral sxemin və ya bu cür inteqral sxemi birləşdirən məmulatın qeyri-qanuni tətbiqi, idxalı, satış üçün təklif edilməsi, satışı, yaxud başqa formada təsərrüfat dövriyyəsinə daxil edilməsi";*

**2.2.** 13.1-ci maddəyə aşağıdakı məzmunda abzaslar əlavə edilsin:

*"Onlar həmçinin mübahisə ilə əlaqədar yekun qərar çıxarılanadək istənilən vaxt bu Qanunda nəzərdə tutulmuş hüquqların pozulmasının qarşısını almaq və ya pozuntuya dair sübutların saxlanılması üçün təcili müvəqqəti tədbirlərin görülməsinə dair vəsatət qaldırmaq hüququna malikdir.*

*Hüquqların bərpası ilə əlaqədar ləngimələr nəticəsində hüquq sahibinə ciddi zərər vurulacağı halda və ya sübutun (sübutların) məhv ediləcəyinə əsas verə bilən risklər mövcud olduqda, məhkəmə digər tərəfi dinləməklə təcili müvəqqəti tədbirlərin görülməsi barədə qərar qəbul etmək hüququna malikdir";*

**2.3.** 13.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

*"Məhkəmə topologiyaya hüquqların müdafiəsi ilə əlaqədar mübahisələrə baxarkən mülki-hüquqi müdafiənin ümumi vasitələrindən başqa, hüquqların tanınması, hüquqlar pozulan ana qədər olan vəziyyətin bərpa edilməsi və hüquqları pozan, yaxud pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılması, həmçinin zərərin və vəkil xərclərinin ödənilməsi ilə yanaşı iddiaçının tələbinə əsasən aşağıdakıları da tətbiq edə bilər:";*

**2.4.** 13.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

*"Məhkəmə hüquq pozuntusuna səbəb olan topologiyanın, habelə bu cür topologiyanın daxil edildiyi inteqral sxemi birləşdirən məmulatın kompensasiya ödənilmədən və hüquq sahibinə zərər vurmayacaq bir formada ticarət şəbəkələrindən və ya istehsal prosesindən çıxarılması, yaxud konstitusiyanın tələblərinə zidd deyildirsə, məhv edilməsi barədə qərar qəbul edə bilər. Məhkəmənin həmçinin hüquq pozuntusuna səbəb olan topologiyanın və ya bu cür topologiyanın daxil edildiyi inteqral sxemi birləşdirən məmulatın hazırlanmasında (istehsalında) istifadə edilən materialların və*

*avadanlıqların kompensasiya ödənilmədən istifadəçidən götürülməsi, müsadirə və ya məhv edilməsi barədə qərar çıxarmaq hüququ vardır.*

*Məhkəmə qeyd edilən məsələlərlə bağlı işlərə baxarkən hüquq pozuntusunun ciddiliyini və üçüncü şəxslərin qanuni maraqlarını nəzərə almalıdır".*

**3. "Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakı dəyişikliklər və əlavə edilsin:**

**3.1.** 1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

*"1.2. Azərbaycan Respublikasının ərazisində qanunvericiliyə uyğun qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan bütün hüquqi və fiziki şəxslərin kommersiya sirrini təşkil edən məlumatlar onların ifadə edilməsi üsulundan və saxlanıldığı maddi daşıyıcının növündən asılı olmayaraq qanunla qorunur";*

**3.2.** 2.0.1-ci maddədə **", sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar"** sözləri *"olan və bu Qanunun 3-cü maddəsində göstərilən meyarlara cavab verən məlumatlar;"* sözləri ilə əvəz edilsin;

**3.3.** 3.0.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

*"3.0.1. başqa şəxslərə məlum olmadığına görə kommersiya dəyərinə malik olması;".*

**3.4.** 3.0.2-ci maddədə **"sahibi tərəfindən"** sözləri *"belə məlumatların sahibi və bu cür məlumatların qorunmasına nəzarət edən şəxslər tərəfindən"* sözləri ilə əvəz edilsin;

**3.5.** 3.0.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

*"3.0.3. "məlumatın məxfiliyi" dedikdə, onun tam və ya hissələrinin (komponentlərinin) dəqiq konfiqurasiyası və məcmusunun, qeyd olunan məlumat növünə adətən sahiblik edən dairələrə daxil olan şəxslərə məlum olmaması və ya onların belə məlumatları asanlıqla əldə edə bilməmələri başa düşülür";*

**3.6.** 5.0.3-cü maddədən sonra aşağıdakı mətndə yeni 5.0.4-cü maddə əlavə edilsin:

*"5.0.4. kommersiya sirrinin icazəsiz açıqlanmasının və ya onun açılmasına təşviqin və üçüncü tərəflərin kommersiya sirlərini əldə etməsi də daxil olmaqla digər şəxslər tərəfindən sağlam kommersiya praktikasına zidd hərəkətlərin, yaxud istifadənin qarşısını almaq";*

**3.7.** 5.0.4-cü maddə 5.0.5-ci maddə hesab edilsin.